# Əhalinin keyfiyyətli enerji təminatı: görülmüş işlər, real vəziyyət və perspektivlər

**Vəzifələr aydındır: əhalini elektrik enerjisi ilə fasiləsiz təmin etmək, energetika sistemini—həm istehsal edən sistemi, həm də paylayıcı sistemi müasirləşdirməkdir ki, Azərbaycanda ən müasir standartlara cavab verən energetika sistemi yaransın.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Ölkəmizdə həyata keçirilən sürətli sosial-iqtisadi inkişaf bütün sahələrdə, o cümlədən elektrik enerjisi təchizatı ilə bağlı müasir infrastrukturun yaradılması istiqamətində mühüm nailiyyətlərin əldə olunmasına əlverişli şərait yaratmışdır. Yaradılma tarixi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olan müstəqil Azərbaycanın energetika sistemi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müxtəlif vaxtlarda təsdiq olunmuş dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində daha da inkişaf etdirilərək dünya standartlarına uyğun səviyyədə yenidən qurulur.

Son illər respublikamızın regionlarının sosial-iqtisadi inkişafına yönələn proqramların, həmçinin elektrik paylayıcı şəbəkələrdə islahatların növbəti mərhələsi kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 fevral 2015-ci il tarixli sərəncamı ilə "Bakıelektrikşəbəkə" ASC-nin adı dəyişdirilərək "Azərişıq" ASC adlandırılmaqla ölkə ərazisində istehlakçıların etibarlı, təhlükəsiz və səmərəli şəkildə elektrik enerjisi ilə təchizatının həyata keçirilməsi "Azərişıq" ASC-yə həvalə edilmişdir.

Prezident İlham Əliyevin "İşıqlı Azərbaycan" layihəsinin reallaşdırılması çərçivəsində bu işin yeni yaradılan "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə tapşırılması öz bəhrəsini verir. "Azərişıq" ASC-nin kollektivi paytaxtda və eləcə də regionlarda energetika sektorunda müsbət dəyişikliklərin aparılmasına maksimum səy göstərir.

Vurğulamaq lazımdır ki, "Azərişıq" ASC respublikamızın 57 rayon və şəhərini əhatə etməklə 7 Regional Enerji Təchizatı və Satışı İdarəsi yaratmışdır. Bunlar Bakı, Şimal, Cənub, Şimal-Qərb, Aran, Mərkəzi Aran və Qərb Regional Enerji Təchizatı və Satışı idarələridir. "Azərişıq" ASC-nin əsas missiyası istehlakçıları etibarlı, təhlükəsiz və səmərəli elektrik enerjisi ilə təchiz etmək, yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi, ondan səmərəli istifadə etmək, elektrik enerjisi istehlakçıları ilə əməkdaşlıqda diversifikasiyanı təmin etmək, ən müasir texnoloji yeniliklərə əsaslanan idarəetməni formalaşdırmaq, istehlakçılara göstərilən xidmətin keyfiyyətini yüksək səviyyədə təmin etmək və daim təkmilləşdirmək, elektrik enerjisinin texnoloji sərfiyyatını minimum səviyyəyə endirməkdir.

Hazırda respublikanın bütün RETSİ-lərdəki elektrik şəbəkələrində yeni güc mərkəzlərinin yaradılması, bütün qəsəbə və kəndlərin, bütövlükdə yaşayış məntəqələrinin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin olunması işləri geniş şəkildə və böyük sürətlə davam etdirilir.

Ölkənin elektrik enerjisi ilə təchizatı məsələlərinə toxunan və bu sahədə islahatların aparıldığını bəyan edən Prezident İlham Əliyev "Azərişıq"ın yaradılmasından bir qədər sonra keçirilmiş Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir: **"Biz ilin birinci rübündə elektroenergetika sahəsində ciddi islahatlar apardıq. "Azərişıq" qurumu yaradılmışdır. "Azərişıq" "Bakıelektrikşəbəkə" Səhmdar Cəmiyyətinin əsasında yaradılmışdır. "Azərişıq" "Bakıelektrikşəbəkə" Səhmdar Cəmiyyətinin əsasında qurulubdur və əsas məqsəd regionlarda elektrik enerjisi ilə təchizatı Bakının səviyyəsinə qadırmaqdır. Bax, bu idi əsas məqsəd. Çünki son illər ərzində Bakı şəhərində "Bakıelektrikşəbəkə" təşkilatı çox uğurla fəaliyyət göstərirdi. Artıq "Barmek"in dövrü çoxlarının yadından çıxıb. "Barmek" Azərbaycanı nə günə salmışdı?! "Bakıelektrikşəbəkə" o təsərrüfatı öz üzərinə götürənə qədər "Barmek"in təsərrüfatı nə gündə idi?! O günlər çox yaxşı ki, hamının yadından çıxıb. Amma o qaranlıq gecələr hamımızın yadındadır. Yəni, gənc nəsil yəqin ki, bunu xatırlamır, heç xatırlamasa yaxşıdır".**

Bakıdakı ənənəyə sadiq qalan "Azərişıq" Azərbaycanın qədim şəhəri olan Gəncədə də gözəl memarlıq abidəsinin yaradılmasına nail olmuşdur. Gəncənin qədim şəhərsalma üslubuna uyğun olaraq tikilən yarımstansiyaların birinci mərtəbəsi daş üzlüklə, ikinci mərtəbəsi isə qırmızı kərpicdən olmaqla xüsusi memarlıq üslubunda inşa edilib. İnşaat işləri zamanı 1200 metr məsafədə asfalt yol salınıb, ətraf abadlaşdırılıb, yaşıllıq zolaqları yaradılıb. Yarımstansiyanın foyesində ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin büstü qoyulub, ümummilli liderin həyat və fəaliyyətindən bəhs edən guşə yaradılıb. Həmçinin 35/6 kv-luq "Nizami" yarımstansiyasında Qərb Regional Tədris Mərkəzi də yaradılmışdır.

Yarandığı çox qısa müddət ərzində "Azərişıq" ASC yeni yarımstansiyalar inşa etmiş, Bakı şəhərində "Buzovna-2", Şəki rayonunda "Göynük", Gədəbəy rayonunda "Gədəbəy". Bundan başqa 110 kv-luq 100-dən çox yarımstansiya təmir olunmuş, transformatorlar yenisi ilə əvəz olunmuş, kabel və hava xətti çəkilmişdir. Son dövrlərdə Bakı şəhərində və respublikamızın müxtəlif şəhər, qəsəbə və kəndlərində müxtəlif texniki dəyişikliklər aparılmışdır ki, bu da abonentlərin elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılmasına imkan yaratmışdır.

Qeyd etmək lazımdır ki, "Azərişıq" ASC-nin məqsədyönlü fəaliyyəti sayəsində paytaxtda, eləcə də rayon mərkəzlərində, qəsəbə və kəndlərində yararsız, istismar müddəti başa çatmış köhnə transformatorlar yeni tip qapalı Komplekt Transformator Məntəqələri (KTM) ilə əvəz olunur.

Regionlarda, cəbhə bölgələrində yerləşən ərazilərdə energetika sistemi yenidən qurulur və müasirləşir. Təmas xəttində yerləşən Tərtər, Ağdam və Füzuli rayonlarında köhnəlmiş, istismara yararsız elektrik dayaqları dəyişdirilir, naqillər, transformatorlar yeniləri ilə əvəz edilir və müasir timpli yarımstansiyalar quraşdırılır. Ümumiyyətlə, bölgələrin fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təminatı diqqət mərkəzindədir.

"Azərişıq" ASC ölkəmizin ayrı-ayrı bölgələrində gözəl memarlıq quruluşlu ofis binalarının tikintisini uğurla davam etdirir.

Şəbəkədə aparılan əsaslı yenidənqurma işləri və uçot sisteminin müasir texnologiyalar əsasında təkmilləşdirilməsi nəticəsində enerji haqlarının yığımında əsaslı dönüş yaradılmışdır.

"Azərişıq" ASC-nin kollektivi 2018-ci ildə ikiqat səylə çalışır, energetika sistemi dünya standartları səviyyəsində yenidən qurulur. Məhz bunun nəticəsidir ki, cari ilin ötən 9 ayında uğurlu nəticələrə imza atılmışdır.

Dünyanın aparıcı şirkətlərinin istehsal etdikləri müasir avadanlıqların alınıb quraşdırılması, yüksək texnologiyaların tətbiqi müasir tədris prosesinin yaradılmasını labüd edir. Bu istiqamətdə kadr və kadr hazırlığı problemini uğurla həll etmək, eləcə də cəmiyyətə tələb olunan təcrübəli kadr potensialını vermək üçün "Azərişıq" ASC-də Tədris Mərkəzi fəaliyyət göstərir. Mərkəzdə əmək bazarı üçün rəqabətə davamlı, yüksək ixtisaslı kadrlar hazırlanması işinin təşkilində qabaqcıl beynəlxalq və yerli mütəxəssislərin təcrübəsindən geniş istifadə olunur.

Bir sözlə, "Azərişıq" ASC öz missiyasını - istehlakçıların dayanıqlı, fasiləsiz elektrik enerjisi ilə təmin edilməsini daim diqqət mərkəzində saxlayır. Dövlətimizin dəstəyi ilə "Azərişıq" ASC-nin kollektivi kənd, qəsəbə və respublikamızın rayon və şəhərlərində paylayıcı elektrik şəbəkələrinin bərpası və yenidənqurma işlərini uğurla davam etdirəcək, energetika sektorunda müsbət dəyişikliklər baş verəcəkdir.

**Qədir ASLAN,**
**Əməkdar jurnalist.**

*"Azərişıq" ASC və Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün.*

Respublika.- 2018.- 6 oktyabr.- S.5.